# ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏBİƏTƏ KOMPLEKS YANAŞMA PRİNSİPİ

## *Əli Rza Xələflinin nəsr əsərləri misalında ekoloji məsələlərə dair araşdırma*



*Yusif DİRİLİ (MAHMUDOV)*
*Ətraf mühit üzrə tədqiqatçı, tarix üzrə fəlsəfə doktoru*

*II Məqalə*

Ətraf mühitə təsir edən yalnız canlı orqanizmlər deyil, həm də cansız mühit amilləridir; torpaqdır, sudur, havadır. Burda bir faktor kimi mütləq iqlim komponentlərini də qeyd etmək lazımdır - işığı, temperaturu, rütubəti, hətta mühitin duzluluğunu və s. Əli Rza Xələflinin bütün yaradıcılığı boyu biz bu kimi ekoloji amillərə rast gəlirik. Təbiət hadisələri onun nəsrində də, poeziyasında da eyni güclə ifadə olunur. Yazıçının "Bir ayrılıq odu var" (2018) adlı kitabında oxuyuruq: "Dağ seli yolu dağıtmış, dərənin lap qırağında bitmiş nəhəng çinarın da kökünü yumuş, çınarı aşırmışdı. Kökü o tayda qalan çinar bəri üzə aşmışdı. Tanrı öz seliynən, suyuynan yolu dağıdıb bir çinar körpüsü salmışdı" ("Bir ayrılıq odu var" - 2018, s.186). Burda abiotik amil kimi sel-su daşqınlarının canlı təbiətə neqativ təsiri açıq-aydın görünür və bu, milyon illərdir davam etməkdədir. Coşqu ilə axan sellər böyük dağıdıcı gücə malikdir, faciələrə, fəlakətlərə səbəb olur. Zaman-zaman cəmiyyət də, təbiət də bundan ziyan çəkib və çəkməkdədir. Yazıçı-publisist doğru olaraq yazır ki:

"Təbiətdə bir qayanı milyon illik yerindən tərpədib yumalamaqla təbiətin harmoniyasına xələl gətirilir. Demək bir quşun yuvasını dağıtmaq da elə bir əməldir, təbiətə zərbədir. Təbiətdə nəyə toxunsan, məkan daxilində nə varsa hamısı fəryad eləyər:

Şığıdı kəkliyi, tutdu qızılquş,
Dağlar inildədi dilində qarğış.

"Şığıyıb kəkliyi tutanın" özü təbiətin bir hissəsi olsa da, biz onu təcavüzkar kimi, ağına, bozuna baxmadan talançılıq edən təbiət qatilləri kimi görürük. Bəlkə, bu cür yanaşma doğru deyil, axı hər bir canlının yemi başqasının hesabına təmin edilir. ("Bir ayrılıq odu var" - 2018, s.209) Ə.Xələflinin nəsrində mənəvi mühit amili əsas şərtlərdən biridir. İnsan ekologiyasına müəllif doğru olaraq belə yanaşır: "Hüseyn Kürdoğlunun mənəvi mühiti insana ucalıq gözü ilə baxmaq, ali varlığı ali gücündə görmək istəyi üzərində formalaşmışdı. O, sənətkar, şair missiyası ilə sözünü, sənətini, insanı qorumaq, dünyanı xilas etmək naminə səfərbər etmişdi ("Bir ayrılıq odu var" - 2018, s.208). Yuxarıdakı iki misralıq şeir parçası vəhşi təbiətdə mövcud olan qida əlaqələrinə də yaxşı bir nümunədir. Belə ki, burada yem obyektinə çevrilən zəif heyvanla, onu yeməyə hazır olan yırtıcı heyvan arasındakı davranış doğru və qabarıq təsvir edilmiş, cəmiyyətin bəlası kimi güclü-gücsüz münasibətlərinin anormal xarakteristikası real verilmişdir.

Müəllifin bu fikrinin analogiyasına "Söz və qan" (2016) kitabında rast gəlirik: - Bu xaraba evin üstündə - hələ xaraba olmamışdan da qabaq, bəlkə də neçə illərdən bəri yuvasını qoruyub-saxlayan alagöy qarışıq göyərçinin yuvasının üstünə yeridi. Göyərçin də qanadlarını gərib gücünü göstərmək, balalarını qorumaq üçün yuvadan bir az yuxarı çırpındı. Çalağan heç nə götürə bilmədi. Təzədən dövrə vurub qayıtdı... Çalağan təzədən şığıdı. Bu dəfə çalağan yuxarıdan keçmədi. Elə yuvada olan göyərçinin - yuvasından çıxmayan göyərçinin üstünə də bir caynaq çaldı. Göyərçinin qanadlarından qopmuş tüklər, lələklər göydə pərvaz elədi. Ceyhun yuxarı baxdı. Çalağanın caynağında göyərçin çırpınırdı. Ceyhunun ağlına gəldi ki, bəlkə heç göyərçin öz canı üçün yox, balaları üçün çırpınır. Başını yuxarı qaldırdı. Divarın uçuq tərəfinin lap görünən yerində göyərçin yuva bağlamışdı. Ceyhun gözünün ucu ilə də baxdı. Bəli, göyərçin idi. Özü də çöl göyərçini.

...Ətrafda yenə sakitlik idi. Ceyhun təəccüb elədi. Bəs bu nə uğultu, nə çığırtı idi? Bir də gördü ki, yenə həmin çığırtı qopdu. Bir çalağan göydən şığıdı. ...Ceyhun irəliyə süründü. Bir də sürünmək istəyəndə gördü ki, bir neçə ətcəbala göyərçin düz gözlərinin qabağındadır. Demək, çalağan şığıyanda, ana balalarını qorumaq üçün canını qurban verəndə yuva da dağılıb. Və balalar da beləcə o dağılmış yuvadan hara gəldi səpələnib. ...Başını qaldırıb yarımqana bulaşmış ətcəbalaların yuxarıdakı dağılmış yuvalarına sarı baxmaq istədi. Və elə bu anda gördü ki, çalağanın caynağından özünü qoparmış yaralı, qanadları güclə çırpınan göyərçin yuvasına tərəf uçur, arxasınca da həmin qəzəbli çalağan.

Ceyhun əlindəki snayper silahını qaldırdı və diqqətlə nişan aldı... Heç bir an keçməmiş çalağan onların gözlərinin lap qabağına düşdü. Divarın yuxarısında - yarımuçurulmuş evin tinində göyərçin öz yuvasının üstünə qonmuşdu. Ceyhun döyüş dostlarına tərəf üzünü döndərdi:

- Bu ətcə balaları da götürün, həmin yuvaya qoyun, - dedi ("Söz və qan" - 2016, s.161-165).

Birinci Qarabağ Vətən Müharibəsinin epizodunu xatırladan bu hekayət insan ekologiyasına tipik nümunədir. Əsgər yalnız döyüş üçün yaranmayıb ki. O hər mənada haqqın qoruqçusu olmalıdır, elə təbiətin də. Müharibənin gətirdiyi ağrı-acıların əhatəsində adi bir çöl göyərçinin qayğısına qalmaq, balalarını ölümdən xilas etmək sizə çox da bəsit görünməsin.

*(Davamı 5-ci səhifədə)*

*(Əvvəli 1-ci səhifədə)*

İnsan vətəndaş olanda vətən də qorunar, təbiət də, insanlıq da. İnsan ekologiyasının mahiyyətində bu məsələ dayanır. Müharibə təkcə insanlar üçün gəlmir ki. Canlı-cansız ətraf mühitdə nə varsa hamısına öz təsirini göstərir. Heyvanlar da ondan az əziyyət çəkmir. Yuvaları dağılır, yaşayış məskənlərini tərk edir, körpə balaları hərəsi bir tərəfə dağılaraq tələf olur. Yazıçının allaqorik qəhrəmanı olan bu çöl göyərçinin, əsərin əsas qəhrəmanı Ceyhun bəyin xəyali suallarına cavabları müəllifin tapıntısıdır, məncə. "Görmürsən, bu el yoxdu, millət yoxdu, adamlar yoxdu, sən burda niyə qalmısan? Gərək sən də başını götürüb qaçaydın. Bir təhlükəsiz yerdə yuva quraydın."

"Mən hara gedim? Axı mənim yerim-yurdum buradır. Mənim nəslim, kököm, ulu babam-nənəm bu damın üstündə yuva qurub bala çıxarıb. Biz bu yerdə - bu Araz qırağında, düşmənin xaraba qoyduğu Qarabağ deyilən yerdə, yurdda böyümüşük. İndi mən hara gedim? Yaxşı, buranın adamları dağıldı, buranın adamları başlarını götürüb getdilər. Mənim adamlarla nə işim? Axı mən bu xaraba evin, bu yarımdağılmış evin bir tərəfində yuva qurub bala çıxarıram. Bəs mən balalarımı hara aparım?" ("Söz və qan" - 2016, s.165). Bütün bunlar amansız müharibələrin özü ilə dartıb gətirdiyi intəhasız problemlərin məngənəsində sıxılmaq, zindanında əzilməkdir. Müəllifin ustalığı burada təbiət-insan münasibətlərinə yeni şəkildə yanaşa bilməsindədir və o, bunu bacarıb.

mer qəhrəmanı Bilqamısın dostu Enküdünün nəfsinə uyaraq təbiətdən ayrılması düşür. Nəhayətdə aldanıb gəldiyi cəmiyyət onun faciəvi ölümünə səbəb olur. Atların cəmiyyət içinə gətirilməsi onların insan anlamında nəinki fiziki, həmçinin mənəvi ölümlərilə sonuclanır. Axı onların əcdadları təbiətdə doğulub və yaşayıb. Bu cür əzablardan uzaq olub. İnsan öz yaranışı ilə vəhşi təbiəti mədəniləşdirməyə, əhliləşdirməyə çalışıb. Bu, onun özünə lazım olub deyə, xidmətində olan digər canlılara verdiyi əzab onu maraqlandırmayıb. Əlbəttə, bunun özü də ətraf mühitə göstərilən mənfi münasibətdir. Həm də ən pis təsir formasıdır. Yumşaq desək, hey-



çuluğun ətraf mühitə təsiri bu əsərdə olduqca qabarıq verilib. Qeyd etmək lazımdır ki, təbiətdə birgəyaşayış qaydalarına uyğun sürü və dəstələr şəklində gəzib dolanırlar. Birgəyaşayış heyvanların qidalanmasında və hər an gözlənilən təhlükələrdən qorunmalarında müstəsna əhəmiyyət kəsb edir. Turların və dağ keçilərinin həyat tərzi bu cür yaşayışa uyğunlaşıb. Belə sürülərdə lider - başçı məsul fərddir, həm də digər fərdlərdən gövdəsinin və buynuzlarının iriliyinə görə seçilir. Sürü öz liderinə arxayın olub rahat otlaya, gəzə, yata bilər. Ancaq təkə adlanan sürünün başçısı ehtiyatlı və ayıq olmalıdır. Təhlükəni birinci o hiss etməli və sürünü haylayıb qaçırmağı və təhlükəsiz yerlərlə aparmağı bacarmalıdır. Bu heyvanlar yüksəkliklərdə yaşamağa uyğunlaşmışlar. Bura onlar üçün nisbi təhlükəsiz yerdir, həmçinin burda qidalarını təşkil edən hər cür yem var. Buna baxmayaraq, onlar heç də həmişə düşmənlərindən yayına bilmirlər. Birinci və əsas düşmənləri bol və dadlı ətinə, nəfis buynuzlarına tamah salan insanlardır. Bu ov heyvanlarına görə ən hündür dağların zirvəsinə qədər belə gedib çıxan insanlar təəssüf ki, yalnız yerli camaatdan ibarət deyil, həmçinin əcnəbi ölkələrdən təkə eşqinə gələnlərdir. Təbiətşünas yazıçı, rəhmətlik Zaman Novruzun "Ov möcüzələri" və "Vəhşilər arasında" kitablarında, məqalələrində bu cür nümunələr kifayət qədərdir. Xüsusən, onun Babadağda turlara qənim kəsilən yerli, yaxud əcnəbi bədnam ovçuların murdar əməlləri haqqında maraqlı və ürək ağrısı ilə yazdığı hər bir əsər Azərbaycan təbiətinə bu tip üzdəniraq adamların gerçək münasibətini əks etdirir. İndi belə əsərlər çox azdır və ya yox dərəcəsindədir. Əli Rza Xələflinin yuxarıda adını verdiyimiz povesti

# ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏBİƏTƏ KOMPLEKS YANAŞMA PRİNSİPİ

Təbiət üçün fərqi yoxdur - onu insan dağıdır, ya digər təbii amilləri. Bütün hallarda ətraf mühitin canlı-cansız varlıqları deqradasiya olunur. Biz bu misalda yaşayış uğrunda mübarizənin əlamətləri ilə bərabər, mübarizə aparan zəif tərəfin özünüqoruma instinktindən irəli gələn və təkamüldə növün salamatlığını təmin etməyə yönəlmiş davranış xüsusiyyətlərini də asanlıqla görə bilirik.

Yazıçının "Qiyamətdən bir gün əvvəl" (2017) kitabında verilmiş "Siğmazliq, yaxud göydəmir ürgənin ölümü" müəllif sözünü bir çox cəhətdən səciyyəvidir. Xüsusilə, burada ekoloji problemin izlərini görməmək mümkün deyildir. Aşağıda sitat gətirdiyimiz nümunədə xam atın, minilməmiş cavan bir atın minik atına çevirmək üçün öyrədilmə prosesindən bəhs edilir. Özlüyündə bu ağır bir prosesdir və müəllif bunu bütün çılpaqlığı ilə cıza bilib - həm də yanğı ilə, acı təəssüf hissi ilə. "...Yayın axırı olardı. Ürgələrin, minik vaxtı keçməkdə olan dayların öyrədilmə vaxtı çatdı. Əvvəlcə bir erkək qara dayın boğazına kəmənd atıb tutdular. İki kəmənd - biri sağa çəkilir, digəri sola dartılır. Hər ipdən də 2-3 nəfər yapışıb... Cavan ayğır boğulur, gücdən düşür, gözləri bərəlir, yavaş-yavaş çökür, lap ölüm anında boğulmanı dayandırırlar. At ayılar-ayılmaz üstünə ağır kisələrdə daş tayları vurulur, az qala atın beli ortadan qırılacaq qədər gərilir. Bu da azmış kimi bir-iki boş vedrə də bağlanır yanlarına. At gəzdikcə boş vedrələr bir-birinə dəyir. At bundan cinlənib hürkmək istəsə də artıq hərəkətə gücü çatmır və iş bununla da bitmir; sonra yükün ağırlığı azaldılır. Cəsarətli çobanlardan biri atı minir, o yan-bu yana çapır. Hərdən vedrələri də danqıldadır, minik görməyən atı buna öyrəşdirirdilər. Beləcə at minənlər dəyişir, at heydən düşənəcən bunu davam etdirirdilər ("Qiyamətdən bir gün əvvəl" - 2017, s.20-21)

Atın minik vasitəsinə çevrilməsi necə də ağır və dözülməz bir işdir. Bu, insanın onu öldürməsi qədər əzablıdır, dözülməzdir. Heyf ki, insan burda da ətraf mühitə təsir edən antropogen faktor kimi, neqativ ekoloji amil kimi çıxış edir. Vəhşi at ilxıları təbiətdə həmişə olub. Amerika çöllərindəki mustanqları (vəhşi at) xatırlayaq: "Başsız atlı" romanının müəllifi Mayn Rid bu atların həyat tərzini necə də maraqlı təsvir edib. Yaxud M.Prejevalskinin vəhşi atları "kəşf etməsi" və sonradan atların əhliləşdirilməsi. Bəlkə, atların acı taleyi, müşkül həyatı bundan sonra başlanır? Əhli heyvana çevrildikdən sonra atlar yalnız sahiblərinə xidmət ediblər. Onların azadlıq haqqı əllərindən alınıb və təbiətdən uzaqlaşdırılıblar. Bu da acı bir gerçəklikdir. Yadımıza şu-

vanı incitməkdir, canlı orqanizmi incitməkdir! Antropogen faktorlar da müxtəlif olur və bizə görə bu barədə indiyədək nədənsə danışılmayıb. Yazıçının problemi detallarınacan qaldırması diqqəti çəkməyə bilməz. Hesab edirik ki, bu cür problemlərə qarşı həssas olmalıyıq. Araşdırılması vacib olan problem kimi yanaşmalıyıq. Necə olur ki, cəmiyyətdə insanlarla bağlı belə hal yaranan təki, ona faciə kimi yanaşılır. Özümüzə qohum növ hesab etdiyimiz yüksək kateqoriyalı heyvanlarla işgəncəli davranışa laqeyd qalırıq. Ə.R.Xələflinin müşahidəsində gəldiyimiz qənaət budur! Əsərin qəhrəmanı - müəllif uşaq vaxtı müşahidə etdiyi bu hadisənin sonluğunu elə belə də bitirir: İnsan təbiəti sevdiyi qədər də ona biganədir, laqeyddir. Başımıza gələn bəlaların çoxu da bu səbəbdən baş verir.

"Növbə Göyürgəyə çatdı. Neçə dəfə kəmənd atdılar ilişmədi. Hər tərəfini kəsib qalağın bir küncünə sıxışdırmaq, qalağın çölündən boynuna kəmənd atmaq istəyirdilər. Birdən Göy ürgə geri dönüb onu sıxışdıranlara tərəf qəzəblə fınxırdı. Yerində oynadı, şahə qalxıb kişnədi, yay kimi dartıldı, qalağın gözü yeyən tərəfinə ox kimi sıçradı. Bura qalağın hündür yeri idi. Həm də arxasından dərin dərə keçirdi. Həmin tərəf bir qədər nəzarətsiz idi. Göydəmir ürgə bir atlanışla o taya çatmalıydı. Məsafənin azlığı, qalağın nisbətən hündürlüyü. Bəlkə, belə hadisənin ilkinliyi... üzündən dərənin o tayına çatmadı. Qabaq ayaqlarının dırnaqları yarğanın qırağını yarıb şırım açdı. Göy ürgə arxası üstə yerə, dərənin dibinə çatmamış bir də kişnədi. Ürgə arxası üstə dərənin dibindəki sellərin qalaqladığı ağ qayalara çırpıldı...

Qışqırdım, ağladım, kimsə mənə acıqlandı: "Sən də bir kiri görək", - dedi. Başqa dinib-danışan yox idi. Adamlar bir-birlərinə baxa bilmirdilər. Ancaq o adamlar onu da bilmirdilər ki, günahkar mən özümü bilirdim. Guya ki, mən at minmək istəməsəydim heç göy ürgəni də "öyrətmək" işi olmayacaqmış..." ("Qiyamətdən bir gün əvvəl" - 2017, s.22-23). Uşaqlıq illərinin acı xatırələrindən biri kimi qələmə alınsa da, ev heyvanlarının köləyə çevrilməsi adamda qorxu və ikrah hissi yaradır. Təbiət canlılarına bu cür münasibət vəhşi təbiətdə də aparılır, həm də vəhşi bir şəkildə. Bu baxımdan "Qüru-run qətli"ndə yazıçı bütün varlığı ilə təbiət-insan münasibətlərinin neqativ çalarlarını kəskinliklə göstərməyə çalışıb və uğurlu da alınıb. Bu əsər "Qiyamətdən bir gün əvvəl" (2017) povestinin bir hissəsi kimi verilmişdir və çöl heyvanları ilə bağlı faciəvi hadisənin monumental təsviridir. Həm də daha çox real hadisələrin daşıyıcısıdır. Ov-

günümüzün bu yöndə yazılan ən monumental bədii-publisistik əsəridir, desək səhv etmərik. Bu arada yadıma 2-3 il öncə KİV-də gündəmə çevrilmiş ərəblərin ölkəmizdə nadir və nəsli kəsilməkdə olan yırtıcı quşları ovlamaları haqqında tükürpədən məlumatlar gəlir. Eynisinə biz Ə.R.Xələflinin qeyd etdiyimiz povestində rast gəldik. Bir az uzaqdan başlayaq və bəzi məqamları təfsilatı ilə verməyə çalışaq: "Təkə sürüdən axırıncının da yanından keçməkdə olduğunu görəndə arxa ayaqları üstə qalxdı. Hirslə fınxırıb qabaq ayaqları ilə havanı yardı (sürünün başçısı təhlükəni duyur və xəbərdarlıq duruşu yaradır, həyəcan səsləri çıxarır - Y.D.). Qayadan özünü atmaq anında dalbadal iki güllə açıldı. Qayadan sıçrayışa, atılışa qalxmış təkə kökü kəsilmiş çinar kimi üzü aşağı milləndi. Başı yerə dirəndi. Gövdəsinin ağırlığı təkəni üzü aşağı çəkdi. Yerə sancılmış buynuzun üstündə təkə elə bayaq dayandığı qaya əzəmətilə, nəhəngliyilə çevrilib çınqıl ovuntusunun üstü ilə üzü aşağı sürüşdü. Turangilin yanından keçən çınqıl axını təkəni də üzüaşağı çəkirdi. Turangil donub qalmışdılar. Nə baş verdiyini hələ bilmirdilər. Bu vaxt əli tüfəngli üç nəfər - Turangildən bir qədər aralı, qayalıqların arasından çıxıb təkənin yumalandığı yerə tərəf yüyürdülər. Turangil də yüyürdülər. Təkə qəzəbli nəzərlərini tüfəngli adamların üzərində dolandırdı. Onları qəzəblə süzdü. Lap yaxınında dayanmış Turana tərəf başını döndərdi: "Sən bunları gördün?" - Turan təkənin təəssüf qarışıq qəzəbli nəzərlərindən elə bu cür də anladı. Başını hüznlə sağa-sola yellədi: "Görmürdüm, bilsəydim, görsəydim hay-haray salardım, sən də duyuq düşərdin" ("Qiyamətdən bir gün əvvəl" - 2017, s.102).

Tüfəngli adamlardan biri qabağa yeridi. Təkənin buynuzundan yapışmaq istədi. Təkə qabaq ayaqlarını yerə dirəyib başını qaldırdı. Təkəni gücsüz, cansız bilən və ona yaxınlaşan adamın böyründən buynuzunu ilişdirdi (Son anda özünü instinktiv müdafiə cəhdi, təslim olmamaq kimi də başa düşülə bilər. Maraqlıdır ki, digər ev heyvanlarından fərqli olaraq, keçi heç vaxt düşmənə təslim olmur; ölər, özünü qayadan atar, ancaq ələkeçməsini istəməz. O ki, qala, qaya keçisi... - Y.D.). Sanki qeybdən təkəyə güc gəlmişdi. Bir anda tüfəngli adamın ayaqları altından çınqıllar hərəkətə gəldi. Buynuzdan canını qurtaran adam özünü saxlaya bilmədi. Sürüşkən çınqılların üstü ilə üzü aşağı yuvarlandı. Təkə qatilin arxasınca baxdı. Sonra da başını döndərib digər silahlılara tərəf nəzər yetirdi.

*(Davamı var)*